# GÖRKƏMLİ AZƏRBAYCAN ALİMİ NİZAMİ MƏMMƏDOV



**Fəlsəfə elmləri doktoru Nizami Məmmədov Rusiya Federasiyası Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövləti Xidməti Akademiyasının professoru, Qloballaşma və Davamlı İnkişaf İnstitutunun direktoru, Rusiya Ekologiya Akademiyasının, Rusiya Təbiətşünaslıq Akademiyasının, Beynəlxalq Yazıçılar və Publisistlər Assosasiyasının həqiqi üzvü, YUNESCO-nun eksperti, Rusiya Federasiyasının fəxri təhsil işçisidir. Nizami müəllim fəlsəfə, sosial ekologiya, mədəniyyətşünaslıq, ekoloji təhsil nəzəriyyəsi sahəsində məşhur alimdir. Onun 400-ə yaxın məqaləsi, monoqrafiyası, dərslikləri, metodiki vəsaitləri, proqramları elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Nizami Məmmədovun ilk təhsili texniki kibernetika ixtisası olmuş və Azərbaycan Politexnik İnstitutunda müəllim işləmişdir. Fəlsəfə elminə olan marağı onu Moskvada Fəlsəfə İnstitutunun aspiranturasına aparmışdır. Nizami müəllimin namizədlik dissertasiyası modelləşmənin fəlsəfi problemlərinə həsr olunmuşdur.**

Bundan sonra o ekologiyanın və texniki elmlərin qarşılıqlı əlaqəsinin fəlsəfi məsələləri ilə yaxından maraqlanmışdır. Bunların təsiri nəticəsində onun zəngin elmi əsərləri, orta və ali məktəblər üçün dərslikləri çap olunmuşdur. Həqiqətən, Nizami müəllim Rusiyada mühəndis ekologiyasının, ekoloji təhsilin fəlsəfi əsaslarının banisi, bir sıra mədəniyyətşünaslıq, o cümlədən davamlı inkişafın mədəniyyəti konsepsiyasının müəllifidir. Təsadüfi deyildir ki, "XX əsrin məşhur Azərbaycanlıları" kitabında onun həyat və fəaliyyətindən də geniş şəkildə bəhs olunmuşdur.

Nizami Məmmədovun haqqında respublikanın əməkdar jurnalisti Zeytulla Cabbarovun rus dilində yazılmış məqaləsi çox maraqlıdır. Zeytulla müəllim yazır: "Bizim ilk tanışlığımız qiyabi surətdə olmuşdur. Bir neçə il bundan əvvəl Nizami müəllim redaksiyanın poçtuna, xalq yazıçısı Elçin haqqında esse göndərmişdir. Mətn irihəcmli olsa da, çox dəqiq və aydın idi. Mətni oxuduqdan sonra da, ondan ayrıla bilmirdim. Mətn çapa gedənə qədər bütün redaksiya üzvləri məqaləni başdan-ayağa oxumuşdular. Mən gizlətməyəcəm, bundan sonra görkəmli yazıçımızı elə bil yenidən kəşf etdim. Növbəti Bakı humanitar forumu zamanı redaksiyaya forumun yararlığı və əhəmiyyəti barədə məzmunlu material lazım idi. Biləndə ki, forumda Nizami Məmmədov da iştirak edir, qərara gəldik ki, ona müraciət edək. Beləliklə, biz tanış olduq. Mən ona redaksiyamız adından Bakı Humanitar forum haqqında məqalə yazmasını xahiş etdim. O, razılaşdı, onu da qeyd edim ki, Nizami müəllim bir həftəyə forumun konsepsiyasını özündə tam əks etdirən qeyri-adiliyi ilə seçilən mətn hazırladı.

Nizami müəllim xarici görünüşünə görə onun barəsində düşündüyüm təssəvvürlərimə uyğun gəlmirdi. O, zövqlə geyinmiş, çevik hərəkətli, mehriban, güler üzlü insandır"...

Azərbaycanın Qazax rayonunun Kəmərli kəndi Məmmədovlar ailəsinin məskunlaşdığı yerdir. Nizami hərbiçi Mustafa Məmmədovun ailəsində dünyaya gəlmişdir. Orta məktəbin birinci və buraxılış sinifini Qazaxda bitirmişdir. Atasının növbəti təyinatları ilə əlaqədar olaraq, yuxarı sinifləri respublikamızın digər rayon və şəhərlərinin məktəblərində oxumuşdur. Nizaminin ona tanış olmayan mühitə tez uyğunlaşmağının, yeni-yeni insanlarla ünsiyyət yaratmağının səbəbi də elə buradan qaynaqlanır. Onun atası istedadlı və azad fikirli insan idi, öz xalqının tarixini gözəl bilirdi. Görkəmli şəxsiyyətlərin xatirələrini toplayırdı. Hesab edirdi ki, belə insanların həyat yolu yeni nəslin tərbiyəsində böyük əhəmiyyət kəsb edir.

Nizami Məmmədovun anası Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirmişdir. O, evdə ailə üzvləri ilə tez-tez ədəbiyyat gecələri keçirirdi. Gənc yaşlarından ailədə tarix və ədəbiyyata belə zövqlə, təəssübkeşliklə yanaşmalar Nizaminin, eləcə də sonradan filoloq-alim olan bacısının həyat duyumuna, dünyagörüşünə böyük təsir etmişdir.

Orta məktəb illərində Nizami müəllimin riyaziyyat və fizika fənlərinə marağı böyük idi. Buna görə də Azərbaycan Politexnik İnstitutuna qəbul olundu. Təhsilini başa vurduqdan sonra onu institutda saxladılar. Nizami müəllim avtomatik tənzimlənmə nəzəriyyəsi fənnindən dərs deməklə yanaşı, texniki elmlər sahəsi üzrə namizədlik dissertasiyası üzərində işləməyə başladı. O, elə zənn edirdi ki, artıq elm sahəsi üzrə ixtisasını müəyyənləşdirib. Bəlkə də o akademik Firudin Köçərli ilə tanış olmasaydı bu, həqiqətən də belə olacaqdı. Nizami müəllim o dövrü belə xatırlayır: "Namizədlik üçün fəlsəfə fənnindən imtahan verərkən referat yazmışdım. Həmin referatda modelləşdirmə metodunu aydınlaşdırmağa çalışmışdım. Demə, həmin vaxtda Firudin müəllim Moskvaya fəlsəfə elmi üzrə oxumağa göndərmək üçün kadr axtarırdaymış. Mənim referatım Firudin müəllimdə müsbət mənada böyük təəssürat yaratmışdı. O, mənə fəlsəfə istiqamətində aspiranturaya daxil olmağı məsləhət gördü. Gənclik çılğınlığı və inam Moskva haqqında romantik təsəvvürlər və yeni istiqamət fəaliyyətini əldə etmək inancları müsbət qərara gəlməyimi həll etdi".

Bununla da Nizami Məmmədovun Moskva həyatı başlayır. Aspiranturada oxuduğu dövrdə o, eyni zamanda Lomonosov adına Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsinin dinləyicisi olur. O, belə hesab edirdi ki, fəlsəfə sahəsində biliyə yiyələnmək üçün onun dolğun tarixini hərtərəfii öyrənmək lazımdır. O, Valentin Asmus, Bonıpartıy Kedrov, Aleksandr Zinovyev kimi filosofların məruzələrini dinləmişdir. Nizami Məmmədov yeddi il ərzində həm namizədlik, həm də doktorluq dissertasiyalarını müdafiə edərək Sovet İttifaqında fəlsəfə üzrə ən gənc doktorlardan biri olmuşdur.

Doktorluq dissertasiyasını müdafiə etdikdən sonra o bir neçə il Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun əməkdaşı olmaqla fəlsəfənin təbii elmlər üzrə şöbəsinə rəhbərlik etmişdir. Nizami müəllim həmin dövrlərdə onunla çalışan, işinə məsuliyyətlə yanaşan istedadlı insanları nostalji hisslərlə yaxşı xatırlayır.

1987-ci ildə Nizami Məmmədovu Moskva Dövlət Pedaqoji Universitetinə işə dəvət edirlər. O, həvəslə təhsil sferasına daxil olur. Böyük etimad qazanaraq Rusiya Pedaqoji İnstitutlarının elmi-metodiki şurasının sosial-humanitar fənləri üzrə sədri seçilir. Sonradan Rusiya Federasiyası Prezidenti yanında Rusiya Dövlət Xidməti Akademiyasına işə keçir (hazırda Rusiya Federasiyası Prezidenti yanında Dövlət Xidməti və Xalq Təsərrüfatı Akademiyası adlanır). Bu gün o həm də əvəzçilik üzrə Qloballaşma və Davamlı İnkişaf İnstitutunun direktorudur.

Nizami müəllim Rusiya Təhsil Akademiyasının ekoloji təhsil sahəsi üzrə işlərində yaxından iştirak edir, tanınmış pedaqoq, professor İrina Suravegina ilə birgə şagirdlər üçün "Ekologiya" fənnindən dərslik hazırlamışdır. Dərslik ilk dəfə 1996-cı ildə işıq üzü görmüşdür. Dərsliyin ərsəyə gəlməsini dünya şöhrətli alimlər, akademiklər Aleksandr Yanşin və Nikita Moiseyev müdafiə etməklə yanaşı, həmin dərsliyin giriş və nəticə hissəsində öz müsbət fikirlərini qeyd etmişlər. Mütəxəssislər öz resenziyalarında göstərmişlər ki, dərslik ekoloji ədəbiyyatın ümumi mühiti ilə, fəlsəfi-metodoloji əsaslara söykənərək, elmi məzmunlu, orijinal pedaqoji yanaşma tərzini və əhatəli illustrasiyaları özündə əks etdirir. Ekologiya dərsliyi bir neçə dəfə yenidən çap olunmaqla, bir çox dillərə, o cümlədən Azərbaycan dilinə də tərcümə edilərək çap olunmuşdur. Keçən ilin oktyabr ayında Rusiyanın Nijni Novqorod və Petorqof şəhərində şagirdlərin təhsili üzrə keçirilən Ümumrusiya seminarlarında "Ekologiya" dərsliyinin yeni çapının prezentasiyası keçirildi.

Çox maraqlıdır ki, bu dərslikdə hər paraqraf görkəmli şair və mütəfəkkirlərin fikirlərini əks etdirən epiqrafla başlayır. Bir milyona yaxın tirajla dərc olunmuş dərslikdə Şərq və Azərbaycan poeziyasından da epiqraflar yer alıb. Beləliklə, rusiyalı şagirdlər ekologiya dərslərində Nizami Gəncəvi, Füzuli, Səməd Vurğun, İlyas Əfəndiyevin adlarına, fikirlərinə rast gəlirlər. Bunun olduqca böyük əhəmiyyəti var. Nizami müəllim burada mədəniyyətlərin dialoqunu realaşdırır, Azərbaycan ədəbiyyatını gözəl təbliğ edir.

Orta məktəb dərsliyindən başqa Nizami Məmmədov ali təhsil müəssisələri üçün "Ekologiya" və "Davamlı inkişaf nəzəriyyəsi" adlı dərsliklər yazmışdır.

Onun baxışlarına görə, məhz "mədəni mexanizmlər" vasitəsilə cəmiyyətin müsbətyönlü dəyişməsinə və "ekoloji sivilizasiyanın" əsaslarının yaranmasına nail olmaq olar. Nizami müəllimin təşəbbüsü əsasında Azərbaycanda YUNESCO-nun milli komissiyasının tərəfdaşlığı ilə respublikamızın Mədəniyyət və Turizm Nazirliyinin 2011/2014-cü illərdə Bakı şəhərində davamlı inkişafın mədəniyyətinin formalaşmasına aid beynəlxalq konfranslar keçirilmişdir. Konfrans materiallarının əsasında "Davamlı inkişafın mədəniyyəti: ideyadan reallığa doğru" sanballı bir kitab nəşr edildi.

Nizami müəllim Heydər Əliyev Fondunun Moskva filialı ilə sıx əməkdaşlıq edir. O, Moskva və Bakı arasında "Əliyev məktəbi" adlı mədəni dialoqun həyata keçirilməsinin təşəbbüskarlarından biri olmuşdur. Nizami müəllim deyir ki, "Əliyev məktəbinin" proqram komitəsinin həmsədri kimi çalışmaq, "məktəbin" materiallarının redaktoru olmaq məndə cavabdehlik hissini artırmaqla yanaşı, şərəf hissi doğururdu.

Nizami müəllim doğma Azərbaycanı çox sevir, tez-tez Bakıya gəlir, respublikamızın filosof və ekoloqları ilə sıx əlaqə saxlayır. Onun keçmiş aspirantları Azərbaycanda elm və təhsil sahəsində layiqli yer tuturlar. Bunlardan NANİ-nin müxbir üzvü Sevda Məmmədəliyevanı, professor Adil Əsədovu, Zakir Məmmədəliyevi, Nazim Hüseynlini və başqalarının adlarını çəkmək olar.

Nizami müəllim ailəsinə ülvi hisslərlə bağlı bir insandır. O, çalışır ki, övladlarının dördü də Rusiyada böyüyüb boya-başa çatsalar da, Azərbaycan adət-ənənələrini və mədəniyyətini mənimsəməklə yanaşı öz həyatlarında əks etdirsinlər və qiymətləndirsinlər.

Nizami müəllim çoxsaylı mükafatlara layiq görülmüşdür. Elə bu yaxınlarda B.U.Bernadski adına Rusiya Ekologiya Akademiyasının və Fondunun, Ekologiya Akademiyasının fəlsəfi təhqiqat və ekoloji təhsil sahəsi üzrə B.U.Bernadski adına ordenə layiq görülmüşdür. Bu ordenə Rusiya və xarici ölkə alimləri təbii elmlər və davamlı inkişaf nəzəriyyəsi sahəsində göstərdikləri xüsusi xidmətə görə təltif edilirlər.

Nizami Məmmədov özünün elmi-pedaqoji fəaliyyətinin inkişaf zirvəsini daşıyır, respublikamızı xaricdə layiqli təmsil edir. Sokrat demişdir: "Hər bir insanda günəş vardır, imkan verin saçsın".

Nizami müəllimin həyatda bəxti gətirmişdir, gözəl ailəsi əmin-amanlıq şəraitində yaşaması ona bu geniş imkanları vermişdir. O, indi cəmiyyətdə, xalqa borclu qalmaq istəmir. Öz övladları və şagirdləri üçün elə şərait yaratmaq istəyir ki, onlar da özlərini "günəş" kimi hiss etsinlər.

**Məmməd BALAYEV,**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fəlsəfə və sosial fənlər kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor.**